# *Azərbaycan dili üzrə test*

*Təlimat*

İmtahan testinin elektron bukleti qarşınızdadır. Testin maksimal balı 70-dir.

Testi yerinə yetirmək üçün sizə 4 saat vaxt verilir.

Növbəti səhifəyə keçmək və geri qayıtmaq üçün klaviaturanın üzərində ox işarələri olan klavişlərindən istifadə edə bilərsiniz.

Sizə uğurlar arzulayırıq!





# AZƏRBAYCAN DİLİ (35 BAL)

(1) **1. Hansı sözdə bir uzun sait var?**

A) Naməlum.

B) Malikanə.

C) Nalayiq.

D) Laməkan.

(1) **2. Hansı cərgədəki sözlər arxaizm *deyil?***

A) Çuxa, baqqal, tutuq.

B) Batman, sayru, düz.

C) Koxa, kütah, tanıq.

D) İgid, kütlə, təyin.

(1) **3. Eyniköklü sözlər cərgəsini seçin.**

A) Dərinlik, dərindəki, dərində.

B) Sıxıntı, sıxılmaq, sıxışmaq.

C) Otarmaq, oturmaq, otlaqdan.

D) Yazlıq, yazı, yazda.

(1) **4. İsimləşmiş feili sifət hansı cümlədədir?**

A) Yetişmiş meyvələr zavoda göndərildi.

B) Vətənin keşiyində duran əsgərlərlə fəxr edirik.

C) Lalə yazılanları çapa göndərdi.

D) Əhmədin yazdığı məktub anasına verildi.

(1) **5.** *“Gah sən qazanırsan, gah da mən”* **cümləsindəki bağlayıcının növünü göstərin.**

A) Qarşılaşdırma.

B) Aydınlaşdırma.

C) Bölüşdürmə.

D) Birləşdirmə.

(1) **6.** *“Uşaqlar ürəyində sevgi daşıyar”* **nümunəsinin morfoloji təhlilinə aiddir:**

A) Feil quruluşca sadədir.

B) İsimlərdən ikisi adlıq haldadır.

C) Cəm şəkilçili isim düzəltmədir.

D) Feil əmr şəklindədir.

(1) **7. Söz birləşmələrindən hansı quruluşca mürəkkəbdir?**

A) Onun mənalı baxışları.

B) Qocaya kömək etmək.

C) Quş təki uçan.

D) Evə tərəf qaçan.

(1) **8. Hansı cümlə yalnız mübtəda və xəbərdən ibarətdir?**

A) Sənə gözəl  xəbərim var.

B) İclasda bütün qonaqlar çıxış etdilər.

C) Qonaqların hamısı çayın kənarındadır.

D) Ağacın yarpaqları suya tökülürdü.

(1) **9. Verilmiş nümunədə hansı durğu işarələri buraxılmışdır?**

*Qız dedi Ana niyə gəlmisən*

A) Qoşa nöqtə, vergül, sual işarəsi.

B) Qoşa nöqtə, dırnaqlar, vergül, sual işarəsi.

C) Qoşa nöqtə, iki vergül, sual işarəsi.

D) Qoşa nöqtə, nöqtəli vergül, dırnaqlar, sual işarəsi.

(1) **10. Hansı xüsusiyyət məişət üslubu üçün səciyyəvidir?**

A) Məcazilik, obrazlılıq.

B) Mücərrədlik, qismən dəqiqlik.

C) Aydınlıq, dəqiqlik.

D) Sadəlik, sərbəstlik.

(2) **11.** **Şagird yazdı:** *Biz iclasda çıxış etməyəsiyik*.

Şagirdin hansı səhvə yol verdiyini müəyyən edin.

Bənzər səhvi etməmək üçün ona nəyi bilmək lazım olduğunu açıqlayın.

(2) **12.** **Şagird yazdı:** *vətəndaş, qardaş, yoldaş, sirdaş sözləri düzəltmədir***.**

Şagirdin etdiyi səhvi göstərin.

Bənzər səhvi etməmək üçün ona nəyi bilmək lazım olduğunu açıqlayın.

(4) **13. Sizin məqsədiniz müxtəsər və geniş cümlələri şagirdlərə izah etməkdir.**

**I –** Müxtəsər cümlə nəyə deyilir? Cavabınızı nümunə ilə əsaslandırın.

**II –** Geniş cümlə nəyə deyilir? Cavabınızı nümunə ilə əsaslandırın.

(7) **14. Korneli Vissarionovun “İki qar dənəciyi” mətnini oxuyun və tapşırıqları yerinə yetirin.**

Aydın bir qış səhəri idi. Küləksiz, sakit havada iri, yumşaq qar dənələri, sanki rəqs edirlərmiş kimi fırlanır, asta-asta aşağı enirdilər.

Yanaşı uçan iki kiçicik qar dənəcikləri öz aralarında söhbət edirdi. Bir-birini itirməsinlər deyə əl-ələ tutmuşdular. Qar dənəciklərinin biri şən-şən deyirdi:

– Gör biz necə də gözəl uçuruq!

– Biz uçmuruq, sadəcə olaraq düşürük, - deyə o biri dənəcik qəmli-qəmli cavab verirdi.

– Tezliklə biz yerə enəcək və ağappaq, yumşaq yorğana çevriləcəyik!

– Yox, biz öz ölümümüzə doğru uçuruq. Yerdə isə bizi, sadəcə, tapdalayacaqlar.

Birinci qar dənəcəyi deyirdi:

– Biz balaca çaylara qarışıb dənizə axacağıq.

– Yox, biz əriyib torpağa qarışacaq və palçığa çevriləcəyik,-deyə ikinci dənəcik ona etiraz edirdi.

– Sonra biz buxarlanıb yenidən göyə qalxacağıq. Biz əbədi yaşayacağıq!

– ...

Nəhayət, qar dənəcikləri mübahisə etməkdən yoruldular. Onlar əllərini bir-birindən ayırdılar və hər biri özü üçün seçdiyi taleyinə tərəf uçdu.

**I –** Mətndə ifadə olunan əsas fikir nədir?

**II –** Mətndə təqdim olunan fikri dəstəkləmək və inkar etmək üçün arqumentlər gətirin.

**III –** Mətnə əsaslanmaqla hansı arqumentin daha çox qəbul olunduğunu və səbəbini qeyd edin.

*Yerinə yetirdiyiniz tapşırıqda dil səhvi və ya stilistik qüsur olsa, bir (1) balınız azalacaq.*

(10) **15.** **Şagirdin yazı işini oxuyun və aşağıdakı göstərişləri yerinə yetirin:**

**I** – Şagirdin yazı işinə I meyara əsasən bal yazın və mətndən müvafiq nümunə gətirin.

**II** – Şagirdin yazı işinə II meyara əsasən bal yazın və mətndən müvafiq nümunə gətirin.

**III** – **1.** Şagirdin yazı işinə III meyara əsasən bal yazın və mətndən müvafiq nümunələr gətirin.

**2.** Hər bir səhvin növünü (orfoqrafik, morfoloji, punktuasiya və ya sintaktik) müəyyən edin.

## Qiymətləndirmə sxemi

| *N* | *Meyarlar* | *Meyarların tərifi* | *Ballar* |
|---|---|---|---|
| **I** | Düşüncəni əsaslandırma (arqumentasiya və sitat) | a) Müzakirə aydındır, arqumentlidir, arqumentlər müvafiq nümunələrə əsaslanır;<br>b) Müzakirə müəyyən qədər arqumentlidir, arqumentlər müvafiq nümunələrə əsaslanmır və faktiki səhvlər buraxılıb;<br>c) Mətn qeyri-adekvat anlaşılıb, müzakirə inandırıcı deyil, nümunələrə qeyri-adekvat istinad edilib. | 2<br>1<br>0 |
| **II** | Leksika və üslub | a) Fikir dəqiq və aydındır, yazı üslubu düzgündür, heç bir leksik səhvə yol verilməmişdir;<br>b) Fikir düzgündür, ancaq söz bazası azdır, yaxud stilistik və/və ya leksik səhvlərin sayı ikidən çox deyil;<br>c) Əsas fikir aydındır, ancaq yazının üslubu düzgün deyil, qeyri-adekvat sözlər var. | 2<br>1<br>0 |
| **III** | Orfoqrafiya, morfologiya, sintaksis və punktuasiya | a) Bu cür səhvlər üçdən çox deyil;<br>b) Bu cür səhvlər altıdan çox deyil;<br>c) Bu cür səhvlər altıdan çoxdur. | 2<br>1<br>0 |

**Şagird üçün təklif olunan tapşırıq:**

Zamanın dəyərini vaxtında bilməsək gec ola bilər.

*Arqumentli düşüncə ilə bu fikri inkar edin və ya onunla razılaşın.*

**Şagirdin yazısı:**

**Həyat heç də aldığımız nəfəslərin sayı ilə ölçülmür.**

**O, bizi nəfəsimizi kəsməyə məcbur edən anların, məqamların sayı ilə ölçülür. Zaman hər saniyə axıb gedir, onu saxlamaq mümkün deyil. Amma elə indi onu bundan sonra necə işlədəcəyimizi düşünməyə dəyər. Sizinlə bölüşmək istəyirəm bir əhvalatı.**

**Bir kişi uşaqlıqda qoca qonşusu ilə çox mehriban idi, onları dost adlandırmaq olardı.**

**Zaman ötür, kollec və digər əyləncələr ortaya çıxırdı. Gənc insan demək olar ki, hər dəqiqə məşğul idi. Onun keçmişi xatırlamağa heç vaxtı qalmırdı. O heç yaxınları ilə birlikdə olmaq üçün nə zaman ayırmır, nə də vaxt tapmırdı.**

**Bir dəfə o eşidir ki, qoca qonşuları ölüb və qəflətən xatırlayır ki, bu qoca ona çox şey öyrədib, hətta vəfat etmiş atasını belə əvəz etməyə çalışıb.**

**Dəfindən sonrakı axşam kişi mərhumun kimsəsiz qalmış evinə daxil olur. Hər şey məhz neçə-neçə illər əvvəl olduğu kimi idi. Ancaq otaqdakı stolun üstündə olan qızılı rəngli qutu yox idi. Qocanın sözlərinə görə, o bu qutuda onun üçün ən əziz, ən dəyərli olan əşyanı saxlayırdı. Cavan oğlan düşünür ki, yəqin, qutunu mərhumun az saylı qohumlarından biri götürüb. Daha sonra o, evi tərk edir.**

**İki həftə sonra o, bir bağlama alır. Bağlamanın üstündə rəhmətə getmiş qonşusunun adını görən kişi diksinir və bağlamanı açır. İçində həmin qızılı rəngli qutu var idi. Qutunun içində isə qızıl qol saatı vardı, saatda yazılmışdı: “Mənimlə keçirdiyin zamana görə çox sağ ol”.**

**Gənc adam başa düşür ki, qoca kişi üçün ən dəyərli şey balaca dostu ilə keçirdiyi zaman idi. Həmin vaxtdan sonra gənc adam ailəsinə və oğluna daha çox vaxt ayırmağa çalışır.**

**Beləliklə, bildirmək istəyirəm ki, sevdiklərimizə və ailəmizə zamanında dəyər verib, qədrini bilməliyik.**

# AZƏRBAYCAN ƏDƏBİYYATI (20 BAL)

(1) **16. Aşağıdakılardan hansı məsəldir?**

A) Dost qədrini dost bilər.

B) Cücəni payızda sayarlar.

C) Mıxı mismara döndərən var.

D) Dəmiri isti-isti döyərlər.

(1) **17.** **Verilənlər "Koroğlu" eposundakı hansı obraza aiddir?**

*Koroğlunu əsir almağı bacarmışdı.*
*Hasan paşanın qızı Dünya xanıma aşiq idi.*

A) Bolu bəy.

B) Ərəb Reyhan.

C) Xoca Əziz.

D) Mehtər Murtuz.

(1) **18.** **“Dərzi şagirdi Əhməd” nağılındakı Allahverdi xan obrazı ilə bağlı düzgün fikri seçin.**

A) Allahverdi xan Əhmədə məsləhət görür ki, Pəri Soltanı atasından şərt olaraq istəsin.

B) Allahverdi xan Əhmədin cavanlığına yazığı gəldiyi üçün onun öldürülməsinə mane olur.

C) Allahverdi xan  Firəng padşahının suallarına cavab vermək üçün xalqa müraciət edir.

D) Allahverdi xan verdiyi ağıllı məsləhətləri ilə şaha düzgün istiqamət göstərir.

(1) **19. İntibah dövrü Azərbaycan ədəbiyyatı ilə bağlı fikirlərdən hansı doğrudur?**

A) Bu dövr ədəbiyyatının ən görkəmli nümayəndəsi N.Gəncəvidir.

B) Bu dövrdə ədəbiyyat yalnız ərəb dilində yaranmışdır.

C) Bu dövr ədəbiyyatında qəzəl janrının nümayəndəsi M.Füzulidir.

D) Bu dövrdə anadilli ədəbiyyat təşəkkül tapmışdır.

(1) **20. Verilmiş misralar “İskəndərnamə” əsərinin hansı parçasındandır və “böyük tacidar” dedikdə kim nəzərdə tutulur?**

*Nüşabə gördü ki, o qızğın aslan*

*Pozuldu, alçalıb düşdü ucadan*

*Dedi: “Ey uğurlu, böyük tacidar!*

*Zəmanə başlara çox oyun açar”.*

A) “İskəndərin taxta çıxması”- İskəndər.

B) “İskəndərın Bərdəyə gəlməsi və Nüşabə ilə görüşü”- İskəndər.

C) “İskəndərın Bərdəyə gəlməsi və Nüşabə ilə görüşü” - Feyləqus.

D) “İskəndərin taxta çıxması” - Feyləqus.

(1) **21. Fikirlərdən hansı İ. Nəsiminin "Sığmazam" qəzəlinə aid edilə bilər?**

A) Lirik qəhrəman fikirlərini ifadə etməkdə tərəddüd edir.

B) Müəllif mövqeyini çəkinmədən müdafiə edir.

C) Lirik qəhrəmanı gerçək, bəşər xislətli təqdim edir.

D) Müəllif şeirdə sufi görüşlərini müdafiə edir.

(1) **22. Məntiqi ardıcıllığı tamamlayın: “Leyli və Məcnun“, “Yeddi cam”, “Söhbətül-əsmar”...**

A) “Bəngü Badə”.

B) “Hədiqətüs-süəda”.

C) “Rindü Zahid”.

D) “Səhhət və Mərəz”.

(1) **23. H. Cavidin "İblis" və Mir Cəlalın "Vətən yaraları" əsərlərinin ortaq cəhətini müəyyən edin.**

A) Qəhrəmanlar hadisələr haqqında fəlsəfi düşüncələrə dalır.

B) Döyüşçü əsgərlərin dostluğu müsbət dəyərləndirilir.

C) Fəlakətlərin əsas səbəbi insanların nəfsə uymasında görülür.

D) Düşmən qarşısında məğlubiyyətə xəyanət səbəb olur.

(1) **24. N. Vəzirovun “Müsibəti-Fəxrəddin” əsərində əks qütblərdə dayanan obrazlar hansılardır?**

A) Fəxrəddin bəy, Səadət xanım.

B) Rüstəm bəy, Səadət xanım.

C) Rüstəm bəy, Mələk xanım.

D) Şahmar bəy, Mələk xanım.

(1) **25. “Aldanmış kəvakib” əsərində Yusif Sərrac obrazının məğlubiyyətinin səbəbi nə idi?**

A) Ulduzların qəzəbinə gəlib həlak oldu.

B) Adət-ənənələrin ziddinə hərəkət etdi.

C) Zülmə öyrənmiş xalq Yusif Sərracın islahatlarını dərk etməyə hazır deyildi.

D) Vətənin taleyi ilə az maraqlanırdı, islahatlarda ciddi səhvlərə yol verirdi.

(1) **26. M. Ə. Sabirin “Neylərdin, ilahi?!” şeiri hansı mövzuda yazılmışdır?**

A) Azad məhəbbətin tərənnümü.

B) İnsan təbiətindəki ətalət və cəhalətin tənqidi.

C) Qadın əsarətinin tənqidi.

D) Qərbə meyillilik və azadlığın tərənnümü.

(1) **27. M. Müşfiqin "Həyat sevgisi" şeiri haqqında *səhv fikri* seçin.**

A) Üzləşdiyi hadisələr bəzən şairi sarsıdır.

B) Problemlər olsa da gözəlliklərdən əl çəkə bilmir.

C) Dünya gözəlliklərinə vurğunluq hissi ilə yaşayır.

D) İşıqlı gələcəyə nikbin inam hissi ilə yaşayır.

(1) **28. Nümunədə işlənmiş bədii ifadə və təsvir vasitələrini göstərin:**

*Kimsə məndən ötrü darıxır hər dəm,*

*Kimsə yasa batır görəndə məni.*

*Kiməsə bayramam, kiməsə matəm,*

*Kiməsə əbədi həyat yelkəni.*

A) Anafora, bədii təzad.

B) Anafora, epitet.

C) Bədii təzad, kinayə.

D) Metafor, metonimiya.

(1) **29. “Molla Nəsrəddin” ədəbi məktəbinin nümayəndələri hansı variantda düzgün verilmişdir?**

A) Hüseyn Cavid, Mirzəli Möcüz, Əli Nəzmi.

B) Cəlil Məmmədquluzadə, Ömər Faiq Nemanzadə, Əli Nəzmi.

C) Məmməd Səid Ordubadi, Ömər Faiq Nemanzadə, Hüseyn Cavid.

D) Cəlil Məmmədquluzadə, Abdulla Şaiq, Məhəmməd Hadi.

(1) **30. R. Rzanın "Qızılgül olmayaydı..." əsəri Azərbaycanın hansı görkəmli şairinin faciəvi həyatının bədii ifadəsidir?**

A) M. Ə. Sabir.

B) M. Müşfiq.

C) İ. Nəsimi.

D) M. Füzuli.

(1) **31. İ. Krılovun "Ağac" əsərinin ideyası hansı variantda düzgün verilmişdir?**

A) Təbiəti qorumaq lazımdır.

B) Ağac bar verəndə başını aşağı salar.

C) Meşə ağacsız olmaz.

D) Ağılsız hərəkət faciəyə səbəb olar.

(1) **32. Verilmiş sitat hansı əsərə aiddir?**

*"Yoxsul olsam da, qəlbim geniş, ruhum ucadır."*

A) S.Vurğun "Ananın öyüdü".

B) Y.V.Çəmənzəminli "Zeybək qızı".

C) A.Şaiq "Anabacı".

D) S.Hüseyn "İki həyat arasında".

(1) **33. Ə. Kürçaylının “Qaranquş” şeirinin ideyası ilə səsləşən atalar sözünü müəyyənləşdirin.**

A) Qurdun sayəsində quş da doyar.

B) Ana hər vaxt haqlıdır.

C) Vətənsiz adam qanadsız quş kimidir.

D) Ana bala ucundan canını oda yaxar.

(1) **34. Hansı aşıq yaradıcılığını şifahi xalq ədəbiyyatından fərqləndirən əsas xüsusiyyətlərdir?**

A) Aşıq şeirinin müəllifi, təxmini də olsa, hansı münasibətlə söylənməsi məlum olur.

B) Aşıq yaradıcılığı forma və məzmunca daha zəngindir.

C) Aşıq şeirləri qədim zamanlarda şıfahi yaranıb yayılmışdır.

D) Aşıq yaradıcılığı dini mövzu, konkret dövrün tarixi maraqları ilə əlaqədar olur.

(1) **35. Mehdi Hüseynin "Odlu qılınc" hekayəsində Cavanşir obrazına aid etmək olar:**

A) Hökmdarın qoşuna sərkərdə axtarışına ilk olaraq o səs verir.

B) Xalq onun sərkərdə seçilməsinə razılıq vermir.

C) Davada düşmənin polad qılıncı onu sinəsindən yaralayanda ağlamır.

D) Düşmən ordusunun atlarına Kür suyundan içməyə imkan vermir.

# BƏDİİ MƏTNİN DƏRK EDİLMƏSİ (15 BAL)

**İsmayıl Şıxlının "Ölən dünyam" əsərini diqqətlə oxuyun və tapşırıqları yerinə yetirin.**

## ÖLƏN DÜNYAM

Şəmiddin ağa atı birbaş qardaşıgilə sürdü. Zəncirdən açılmış itlər onu az qala yəhərdən salacaqdılar. Amma kişinin tanış səsini eşidib dayandılar. O, atı həyətə çəkdi. Talvarın altında yüyəni dirəyə bağladı. Pillələri qalxıb, birbaş anasının otağına keçdi. Güllü xanım içərisi başdan-başa gəbə ilə döşənmiş evin yuxarı başında döşəkçənin üstündə oturub yastığa dirsəklənmişdi. Qabağında çay vardı. Dəmir soba gurhagurla yanırdı.

Anası Güllü xanım zəhmli, qürurlu, çətin məqamlarda özünü itirməyən qadın idi. İki oğlu yetkin, evli-baratlı olsa da ana sözünü, ana nəsihətini eşidəcək tərbiyədə idi. Həyat yoldaşı yox idi, övladlarını tək böyütmüş, o cümlədən bütün nəslin başçısı olmuşdur. Digər nəslin başçısı Ömər koxanın qızı yaşında olsa da, məqamında bu ağır təbiətli kişi ilə qarşı-qarşıya durub problemləri çözər, özü ilə hesablaşmağa onu vadar edərdi.

Şəmiddin qapının ağzında bir az ayaq saxladı, sonra ürkək addımlarla anasına yaxınlaşdı. Otuzluq çırağın işığında sifəti aydın görünən anasının gözlərindəki qəzəb qarışıq suala fikir vermədən, qarşısında diz çoküb əlindən öpdü; arvad da oğlunun alnından. Şəmiddin ağa xeyli beləcə, anasının önündə dizi üstə qaldı və yalnız o, işarə edəndən sonra böyründə bardaş qurub oturdu. Arvadın adəti idi: özü çağırmamış heç kəs cəsarət edib icazəsiz onun otağına girə bilməzdi; o handa da yanında oturmaq ola.

Otağa sükut çökdü. Gurhagurla yanan dəmir sobadakı odunların çatırtısı daha aydın eşidilməyə başladı. Qapağın deşiklərindən süzülüb düşən işıq zolaqları gəbələrin üstündə çarpazlaşıb titrəşdi. Güllü xanım başını qaldırıb oğlunun üzünə baxmadan asta-asta çayını içdi və yəqin etdi ki, oğlu onun yanına boş-boşuna gəlməyib.

Qapı azacıq aralandı. Güllü xanım tərs-tərs, zəhmlə necə baxdısa gəlin gəlməyinə peşman oldu və kölgə kimi yox oldu. Şəmiddin ağa başa düşdü ki, anası hirslidi, nəyəsə acıqlanıb, bəlkə də onun çağırılmamış gəlməyinə qəzəblənib? Bəlkə ürəyinə nəsə damıb? Arvadın qaşqabağı bulud kimi tutulmuşdu. Özü yağıb boşalmasa, ona toxunmaq olmazdı. Nəhayət, Güllü xanım gözünü hərləyib oğlunun üzünə baxdı.

– Nə olub, bu gecə vaxtı gəlməyin xeyirdimi?

Arvadın zəhmli səsi fikir götürmüş Şəmiddin ağanı diksindirdi.

– Yox, ay ana, xeyir deyil, başımıza iş gəlib, yanına məsləhətə gəlmişəm.

– Nə iş?

– Həsən ağanın əlindən xata çıxıb.

– Nə xata?

– Adam öldürüb.

– Kimi?

– Ələddini.

– Necə?

– Təsadüfən, ov zamanı.

– Harda?

– O tayda, meşədə.

Güllü xanım elə bil sakitləşdi. Yerini döşəkçənin üstündə rahatlayıb yenidən yastığa dirsəkləndi. Boş stəkanı geri itələdi. Nəlbəki cingildədi. Gəlin elə bil qonşu otaqda bunu eşitdi və qayınanasının ürəyindən keçəni duydu. Qapını aralayıb səssiz addımlarla arvada yaxınlaşdı. Boş stəkanı götürdü. Bir göz qırpımında təzə çayla geri qayıtdı. Güllü xanım yenidən asta-asta çayını içdi.

– Kimsə bilirmi?

– Yox, səndən başqa heç kəsə deməmişəm.

– Yaxşı eləyibsən. İl qədər uzun görünən bir neçə an da gəlib keçdi.

– Dur, arabanı qoş, uşaqlardan da götür, get meyiti gətir.

– Hara?

– Sözümü kəsmə!

Arvad dönüb tərs-tərs oğlunun üzünə baxdı.

– Birbaş bizim həyətə. Xatanı biz etmişik, altından da biz çıxmalıyıq.

Şəmiddin ağa ayağa durdu. Əlini qapının dəstəyinə uzatmazdan əvvəl dönüb anasına baxdı.

Bəs, Həsən ağa neyləsin?

– Meyitlə bərabər evə gəlsin!

Oğlu gedəndən sonra Güllü xanım ayağa durdu. Arvad on dörd taxtalı uzun donunun qırçınlarını, belinin büzməsini sığalladı, iki qatar butalı qızıl düzülmüş qara məxmər baş çəkisini düzəltdi. Koftasının altından bağladığı qurşağa əl gəzdirdi, naqanın yerində olub-olmadığını yoxladı və əsanı əlinə alıb orta divarı bir-iki dəfə taqqıldatdı. Gəlin qapıda göründü.

Arvadın zəhmli səsi ərinin ovdan gec qayıtmasından və qaynı Şəmiddin ağanın anası ilə pıçıldaşmasından sonra arabanı qoşub tələsik getməsindən ürəyi uçunan gəlini daha da vahimələndirdi. Ağzını açıb nəsə soruşmaq istədi. Amma qayınanasının zəhmli nəzərlərini üzündə duyub, dinməzcə geri çəkildi. Güllü xanım bir az aralı qalmış pəncərə taxtalarını kip bağladı, əsası ilə dəmir sobanın qapağını örtdü, otuzluq çırağın fitilini aşağı çəkdi. Otağın işığı azaldı və içəri alaqaranlıq oldu. Bundan sonra keçib yerində, döşəkçənin üstündə oturdu.

Güllü xanım iki nəslin arasında sönməkdə olan ədavətin yenidən alovlanacağından ehtiyat edərək dərin düşüncələrə daldı...

## Təlimat

**Tapşırığı yerinə yetirmək üçün mətni diqqətlə oxuyun. Suallara mətnin məzmunu tamamilə aydın olduqdan sonra cavab verməyə başlayın.**

**Cavablardan yalnız birini seçin və cavablar vərəqinin müvafiq xanasında X işarəsi ilə qeyd edin.**

(1) **36. Birinci abzasda hansı suala cavab var?**

A) Şəmiddin ağa niyə qardaşıgilə gəldi?

B) Şəmiddin ağa niyə birbaş anasının otağına gəldi?

C) Ailənin maddi cəhətdən imkanlı olduğu nədən görünür?

D) Güllü xanım Şəmiddin ağanı niyə gözləyirdi?

(1) **37. Şəmiddin ağa qorxsa da, niyə ilk olaraq anasının yanına gəlir?**

A) Bilirdi ki, anası ona düzgün məsləhət verəcək.

B) Başqalarından öyrənsə anası ona çox qəzəblənərdi.

C) Həsən ağanın məsləhəti ilə gəlmişdi.

D) Məsuliyyəti öz üzərindən atmaq istəyirdi.

(1) **38.** *“Xatanı biz etmişik, altından da biz çıxmalıyıq”* – **bu sitatdan aydın olan *əsas* fikir hansıdır?**

A) İnsan atdığı hər addıma cavabdeh olub, məsuliyyət daşımalıdır.

B) İnsan vurduğu hər bir zərərin maddi qarşılığını ödəməlidir.

C) İnsan ailəsini qorumaq üçün hər bir çətinliyə sinə gərməlidir.

D) İnsan ailə üzvlərinə hörmət etməli, ehtiramla yanaşmalıdır.

(1) **39. Hansı xüsusiyyətləri gəlinə aid etmək olar?**

A) Təvazökarlıq və sadəlövhlük.

B) Acizlik və qorxaqlıq.

C) Acgözlük və hiyləgərlik.

D) Fədakarlıq və qayğıkeşlik.

(1) **40. Verilənlərdən hansını ana obrazına aid etmək olar?**

A) Başqalarının fikrinə hörmətlə yanaşırdı.

B) Ətrafındakılara qarşı ciddi və tələbkar idi.

C) Hər zaman maddi maraqlara üstünlük verirdi.

D) Öz ailəsinə qarşı mehriban və sədaqətli idi.

(1) **41.** *“Arvadın qaş-qabağı bulud kimi tutulmuşdu”* – **cümləsində hansı bədii təsvir vasitəsi işlənmişdir?**

A) Epitet.

B) Mübaliğə.

C) Metonimiya.

D) Təşbeh.

(1) **42. Altından xətt çəkilmiş hissədə hansı *əsas* fikir ifadə olunur?**

A) Güllü xanım qarşılaşacağı hər bir vəziyyətə hazırdır.

B) Güllü xanım gəlninə öz hökmünü göstərmək istəyir.

C) Xanım xarici görünüşünə hər zaman önəm verir.

D) Xanım gələnləri gözəlliyi ilə valeh etmək istəyir.

(1) **43. Hansı cümlədə *mübaliğə* işlənmişdir?**

A) Dəmir soba gurhagurla yanırdı.

B) Güllü xanım yenidən asta-asta çayını içdi.

C) Gəlin bir göz qırpımında təzə çayla geri qayıtdı.

D) Ürəyi uçunan gəlin daha da vahimələndi.

(1) **44. Əsərdə toxunulan *əsas* problem hansıdır?**

A) Ailədaxili şiddətə diqqət yetirmək.

B) İki tayfa arasındakı mübarizəni göstərmək.

C) Hər vəziyyətdə ədaləti bərpa etmək.

D) Güclü qadın obrazına diqqət yetirmək.

(1) **45. Əsərdəki qeyri-bərabərlik özünü harada göstərir?**

A) Güllü xanım Ömər koxanı özü ilə hesablaşmağa vadar etdi.

B) Şəmiddin ağa anasının yanına məsləhətə gəldi.

C) Gəlin gəlməyinə peşman olub kölgə kimi yox oldu.

D) Güllü xanım ölününün birbaşa onların həyatinə gətirilməsini istədi.

(5) **46. Yazı işi:**

**Mətnə əsasən müzakirə edin:**

*“İnsan etdiyi hər bir əmələ görə cavabdeh olmalıdır”.*

***Nəzərə alın:*** *50 sözdən az cavab yoxlanılmayacaq!*